# “DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİ” PUBLİK HÜQUQİ ŞƏXS

**Konsolidə edilmiş Maliyyə Hesabatları**
**və Müstəqil Auditorların Rəyi**
31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə

## KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə "Dövlət Məşğulluq Agentliyi" Publik Hüquqi Şəxsin (bundan sonra "Agentlik" adlandırılacaq) və onun tabeliyində olan qurumların (birlikdə "Qrup") konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2025-ci il tarixinə Qrupun maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, konsolidə edilmiş xalis aktivlərdə dəyişiklikləri və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini düzgün şəkildə əks etdirən konsolidə edilmiş maliyyə hesabatlarının Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq hazırlanması üçün məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Konsolidə edilmiş maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun konsolidə edilmiş maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Qrup işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə konsolidə edilmiş maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Qrup daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün hazırlanması və Qrupun konsolidə edilmiş maliyyə hesabatlarını istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə Qrupun konsolidə edilmiş maliyyə hesabatları 19 iyun 2026-cı il tarixində Qrupun rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərliyin adından:**

| | |
|---|---|
| **Hasil Abbasov**<br>**İdarə Heyətinin sədri** | **Şəms Qasımzadə**<br>**Maliyyə departamentinin müdiri** |
| 19 iyun 2026-cı il<br>Bakı, Azərbaycan Respublikası | 19 iyun 2026-cı il<br>Bakı, Azərbaycan Respublikası |

bakertilly

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Dövlət Məşğulluq Agentliyi" publik hüquqi şəxsin Təsisçisinə və Rəhbərliyinə:

***Şərti Müsbət Rəy***

Biz "Dövlət Məşğulluq Agentliyi" publik hüquqi şəxsin ("Agentlik") və onun tabeliyində olan qurumların (birlikdə "Qrup") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatmış il üzrə konsolidə edilmiş xalis xərclər haqqında hesabatdan, konsolidə edilmiş xalis aktivlərdə dəyişikliklər haqqında hesabatdan və konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə əhəmiyyətli uçot prinsiplərinə dair məlumatlar daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, Şərti Müsbət Rəy üçün Əsaslar paraqrafında təsvir edilən məsələlər istisna olmaqla, əlavə edilmiş konsolidə edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***Şərti Müsbət Rəy üçün Əsaslar***

*Əmlak, tikili və avadanlıqlar*

31 dekabr 2025-ci il tarixinə Qrupun əmlak, tikili və avadanlıqlarının "Binalar" kateqoriyasında əks olunan ümumi qalıq dəyəri 11,669,603 AZN (2024-cü il: 11,953,476 AZN) olan əmlaklar ilkin tanınma anında ədalətli dəyərlə deyil, Qrupun balansına keçirildiyi zaman əmlakı Qrupa əvəzsiz təqdim edən qurumun mühasibat uçotu üzrə qalıq dəyəri ilə ölçülmüşdür. Əlavə olaraq, Qrup əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin dəyərsizləşməsi ilə bağlı hesablama həyata keçirməmişdir. Müvafiq olaraq, Qrupun balansına ötürülmüş əmlakların ilkin tanınması və sonradan ölçülməsi, onun xalis aktivlərə və xalis xərclərə təsiri ilə bağlı əminlik qeyri-qənaətbəxş hesab edilir.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz konsolidə edilmiş maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Qrupdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti müsbət rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

*Konsolidə edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti*

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatları tərtib edildikdə, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət etmək üçün məsuliyyət daşıyır.

*Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti*

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranmış əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranmış təhrifi aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda konsolidə edilmiş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin konsolidə edilmiş maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Baker Tilly Azerbaijan

19 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

## “DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİ” PUBLİK HÜQUQİ ŞƏXS

### KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ
*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 7 | 38,405,339 | 38,645,177 |
| Qeyri-maddi aktivlər | 8 | 4,440,457 | 4,828,648 |
| İnvestisiya qiymətli kağızları | 9 | 20,091,200 | - |
| Digər aktivlər | 13 | 813,225 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **63,750,221** | **43,473,825** |
| **Cari aktivlər:** | | | |
| Mal-material ehtiyatları | 11 | 10,992,674 | 1,292,866 |
| Avans ödənişləri | 12 | 2,826,031 | 4,199,231 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 109,926,943 | 98,581,285 |
| Digər aktivlər | 13 | 463,874 | 214,331 |
| **Cəmi cari aktivlər** | | **124,209,522** | **104,287,713** |
| **CƏMİ AKTİVLƏR** | | **187,959,743** | **147,761,538** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| **Uzunmüddətli öhdəliklər:** | | | |
| İcarə öhdəlikləri | 14 | 1,477,750 | 159,179 |
| Digər öhdəliklər | 15 | 106,029 | 129,556 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **1,583,779** | **288,735** |
| **Cari öhdəliklər:** | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 16 | 1,584,847 | 2,483,454 |
| İcarə öhdəlikləri | 14 | 1,783,807 | 1,225,784 |
| Digər öhdəliklər | 15 | 23,526 | 33,811 |
| **Cəmi cari öhdəliklər** | | **3,392,180** | **3,743,049** |
| **Cəmi öhdəliklər** | | **4,975,959** | **4,031,784** |
| **KAPİTAL:** | | | |
| Nizamnamə kapitalı | 17 | 5,000,000 | 5,000,000 |
| Ümumi fond | | 177,983,784 | 138,729,754 |
| **Cəmi kapital** | | **182,983,784** | **143,729,754** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **187,959,743** | **147,761,538** |

**Rəhbərliyin adından:**

**Hasil Abbasov**
**İdarə Heyətinin sədri**

**Şəms Qasımzadə**
**Maliyyə departamentinin müdiri**

19 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

19 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-38-ci səhifələrdə verilmiş qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# "DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXS

## KONSOLİDƏ EDİLMİŞ XALİS XƏRCLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **MƏSRƏF VƏ XƏRCLƏR:** | | | |
| Əməliyyat xərcləri | 18 | (93,007,867) | (96,552,065) |
| Ümumi və inzibati xərclər | 19 | (49,971,294) | (49,616,916) |
| **ƏMƏLİYYAT XƏRCLƏRİ:** | | **(142,979,161)** | **(146,168,981)** |
| Maliyyə xərcləri | 14 | (277,509) | (159,323) |
| Maliyyə gəlirləri | 20 | 605,051 | 43,527 |
| Digər gəlirlər | 21 | 70,386 | 42,269 |
| İcarə müqavilələrinə xitam verilməsi nəticəsində yaranan zərər | | (435) | - |
| **Mənfəət vergisindən əvvəlki zərər** | | **(142,581,668)** | **(146,242,508)** |
| Mənfəət vergisi xərci | | - | (8,661) |
| **İL ÜZRƏ XALİS XƏRCLƏR** | | **(142,581,668)** | **(146,251,169)** |
| **İL ÜZRƏ CƏMİ XALİS XƏRCLƏR** | | **(142,581,668)** | **(146,251,169)** |

**Rəhbərliyin adından:**

**Hasil Abbasov**
**İdarə Heyətinin sədri**

19 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Şəms Qasımzadə**
**Maliyyə departamentinin müdiri**

19 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-38-ci səhifələrdə verilmiş qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## “DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİ” PUBLİK HÜQUQİ ŞƏXS

### KONSOLİDƏ EDİLMİŞ XALİS AKTİVLƏRDƏ DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | Nizamnamə kapitalı | Ümumi fond | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il** | | **5,000,000** | **85,604,100** | **90,604,100** |
| İl üzrə cəmi xalis xərclər | | - | (146,251,169) | (146,251,169) |
| İşsizlikdən sığorta haqqı üzrə daxilolmalar | 6 | - | 239,260,181 | 239,260,181 |
| Hökumət və ya hökumətin nəzarət etdiyi qurumlarla hesablaşmalar | 6 | - | (39,883,358) | (39,883,358) |
| **31 dekabr 2024-cü il** | | **5,000,000** | **138,729,754** | **143,729,754** |
| İl üzrə cəmi xalis xərclər | | - | (142,581,668) | (142,581,668) |
| İşsizlikdən sığorta haqqı üzrə daxilolmalar | 6 | - | 243,624,920 | 243,624,920 |
| Hökumət və ya hökumətin nəzarət etdiyi qurumlarla hesablaşmalar | 6 | - | (61,789,222) | (61,789,222) |
| **31 dekabr 2025-ci il** | | **5,000,000** | **177,983,784** | **182,983,784** |

**Rəhbərliyin adından:**

**Hasil Abbasov**
**İdarə Heyətinin sədri**

19 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Şəms Qasımzadə**
**Maliyyə departamentinin müdiri**

19 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-38-ci səhifələrdə verilmiş qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Təchizatçılara ödənişlər | | (74,432,382) | (71,928,566) |
| İşçi heyəti ilə bağlı öhdəliklərin ödənilməsi | | (44,156,236) | (44,019,144) |
| İşsizlik sığortası üzrə ödənişlər | | (16,670,399) | (13,398,694) |
| Peşə hazırlığının təşkili üzrə ödənişlər | | (12,277,617) | (6,533,119) |
| Birgə maliyyələşmə üzrə ödənişlər | | (1,349,726) | (998,166) |
| Bank komissiyaları üzrə ödənişlər | | (109,544) | (112,620) |
| Digər gəlirlər üzrə daxilolmalar | | 24,230 | 14,936 |
| Mənfəət vergisi üzrə ödənişlər | | - | (838) |
| Əməliyyat aktivləri və öhdəliklərindəki dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri | | (148,971,674) | (136,976,211) |
| Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər: | | | |
| Məhdudlaşdırılmış pul vəsaitlərində dəyişiklik | | - | (4,089,255) |
| Əməliyyat aktivləri və öhdəliklərində cəmi dəyişikliklər | | **-** | **(4,089,255)** |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | | **(148,971,674)** | **(141,065,466)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| İnvestisiya qiymətli kağızlarının (satın alınmasından)/satışından daxilolmalar, xalis | | (20,091,200) | 8,589,285 |
| Əks repo müqavilələri üzrə alınmış vəsaitlər üzrə faiz gəliri | | 299,464 | - |
| İnvestisiya qiymətli kağızları üzrə alınmış vəsaitlər üzrə faiz gəliri | | 305,587 | - |
| Əmlak, tikili və avadanlıqların satın alınması üzrə ödənişlər | | (1,060,335) | (1,591,445) |
| Qeyri-maddi aktivlər üzrə ödənişlər | | (284,187) | (215,289) |
| **İnvestisiya fəaliyyəti üzrə (istifadə olunan)/daxil olan xalis pul vəsaitləri** | | **(20,830,671)** | **6,782,551** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| İşsizlikdən sığorta haqqı üzrə daxilolmalar | | 243,624,920 | 239,260,181 |
| Ümumi nəzarət altında olan qurumlara ödəniş | | (60,539,708) | (48,200,000) |
| Ümumi nəzarət altında olan qurumların təchizatçılarına ödəniş | | - | (181,390) |
| İcarə öhdəlikləri üzrə ödəniş | 14 | (1,937,209) | (1,275,385) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **181,148,003** | **189,603,406** |

## KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)

*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTMA | | 11,345,658 | 55,320,491 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 10 | 98,581,285 | 43,260,794 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | **10** | **109,926,943** | **98,581,285** |

**Rəhbərliyin adından:**

**Hasil Abbasov**
**İdarə Heyətinin sədri**

19 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Şəms Qasımzadə**
**Maliyyə departamentinin müdiri**

19 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-38-ci səhifələrdə verilmiş qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.